# AZƏRBAYCANIN MƏDƏNİYYƏT SİYASƏTİNDƏ ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ƏNƏNƏLƏRİ

*Maral ƏSƏDOVA*

Ümummilli liderimiz Heydər Əliyevin ölkəyə rəhbərliyi dövründə onun mədəniyyət siyasəti sahəsindəki fəaliyyəti, xarici ölkələrin dövlət başçıları ilə imzaladığı sazişlər, Ulu öndərin çıxışları və məruzələrindəki fikirlər əsas elmi mənbə olub, tədqiqatların əsaslandığı baza əhəmiyyəti daşıyır. Heydər Əliyevin mədəniyyət siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xarici ölkə başçıları ilə görüşləri, qarşılıqlı mübadilə ilə bağlı əldə olunan razılaşma sənədləri də bu baxımdan xüsusi dəyərə malikdir.

Ümummilli liderimiz Heydər Əliyev dönə-dönə vurğulamışdır ki, hər bir xalqın mədəni irsi onun milli sərvəti, tarixi və bu günüdür. Azərbaycan xalqının mədəniyyəti dünyanın ən qədim mədəniyyətlərindən sayılır. Hələ qədim zamanlardan bu ərazilərdə əcdadlarımızın yaratdığı zəngin mədəni irs - tarixi abidələr, şifahi və yazılı ədəbiyyat, memarlıq, rəssamlıq, xalçaçılıq, musiqi sənəti nümunələri Azərbaycan xalqının bəşər sivilizasiyası xəzinəsinə bəxş etdiyi layiqli töhfələrdir. Xalqımızın həmin ənənələri üzərində yüksələn mədəniyyətimiz müasir dövrdə də öz inkişafını davam etdirir. Bu baxımdan Azərbaycanın bir sıra görkəmli şəxsiyyətlərinin yubileylərinin YUNESKO xətti ilə yüksək səviyyədə qeyd olunması, İçərişəhər tarixi-memarlıq qoruğunun "Dünya İrs

Siyahısı"na salınması Azərbaycan muğamının, Azərbaycan aşıq sənətinin "Dünyanın qeyri-maddi mədəni irsi" siyahısına daxil edilməsi milli mədəniyyətimizin zənginliyinin dünya ictimaiyyəti tərəfindən qiymətləndirilməsinin parlaq təzahürüdür.

Heydər Əliyevin göstərdiyi kimi, azadlıq, insanpərvərlik, tolerantlıq kimi yüksək humanist ideyaları təbliğ edən Azərbaycan mədəniyyəti gənc nəslin sağlam ruhda tərbiyə olunmasında mühüm rol oynayır. Coğrafi və geosiyasi mövqeyinə görə dünya xəritəsində özünəməxsus yer tutan Azərbaycanın mədəniyyəti milli və ümumbəşəri dəyərləri özündə üzvi şəkildə birləşdirərək mədəniyyətlər arasında dialoq üçün münbit zəmin yaradır.

Azərbaycan özünün ideoloji-mədəni resurslarına görə dünya ölkələri sırasında nüfuzlu yerlərdən birini tutur. Bu, Ümummilli lider, dünyada nüfuzlu ictimai, siyasi və dövlət xadimi kimi tanınmış Heydər Əliyevin və onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizi beynəlxalq aləmdə təmsil etməsi, müsəlman ölkələri içərisində Azərbaycanın Avropa dəyərlərinə, sivil dünyəvi və hüquqi dövlət quruculuğu proseslərinə meylliliyi, xalqın mədəni və intellektual səviyyəsinin yüksək olması, dünyanın elm, təhsil, mədəniyyət və incəsənət xəzinəsinə verdiyi qabaqcıl töhfələri və b. faktorlardan asılıdır.

Azərbaycan müstəqil dövlət olaraq, öz siyasət mexanizmləri və resursları ilə beynəlxalq aləmdə təmsil olunur, xarici ölkələrdə, beynəlxalq və regional qurumlarla ikitərəfli və çoxtərəfli əlaqələr qurur və özünün milli maraqlarını təmin edir. Bütün bunlar Azərbaycan Respublikasının xarici mədəniyyət siyasətinin əsas istiqamətlərinin müəyyən olunmasında böyük əhəmiyyətə malikdir. Son illərdə Azərbaycanın xarici mədəniyyət siyasətində nəzərə çarpan əsas tendensiyanı beynəlxalq əlaqələrdən - beynəlxalq əməkdaşlığa doğru hərəkət kimi müəyyənləşdirmək olar.

Azərbaycan Respublikasının "Böyük İpək yolu" transmilli layihədə iştirakı dövlətin xarici siyasətinin bir hissəsi olub, xalqlararası mədəni əlaqələrin təmin olunmasına şərait yaradır. Azərbaycanın coğrafi vəziyyəti və xüsusilə respublikada bütün nəqliyyat vasitələrinin və əsas yolların (hava, dəmiryol, dəniz və avtomobil) yaxşı inkişaf etməsini nəzərə alsaq, onun Böyük İpək Yolundakı rolunun aparıcı olduğunu aydın görmək olar. Bu da bir daha təsdiq edir ki, Böyük İpək Yolunun bərpası, yeni nəqliyyat dəhlizi təkcə iqtisadi yox, həm də mədəni əlaqələrin intensivləşməsinə şərait yaradır, Azərbaycanın dünya miqyasında nüfuzunun, gücünün artmasına təkan verir.

YUNESKO və İSESKO kimi nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən həyata keçirilən layihələrdə Azərbaycanın təmsil olunması mədəniyyət siyasətində beynəlxalq münasibətlərinin rolunun artmasını, ölkə rəhbərliyi tərəfindən uğurlu xarici mədəni siyasətin düzgün qurulduğunu və beynəlxalq əlaqələrin inkişaf perspektivlərini üzə çıxarır.

Azərbaycanın müasir mədəniyyət siyasətinin məqsədləri keçmişi qoruyub saxlamaq, indini dəstəkləmək və inkişaf etdirmək, gələcəyə inamla baxmaqdan ibarətdir. Cəmiyyətin ardıcıl surətdə demokratikləşməsi, ölkənin dünya birliyinə inteqrasiyası, mədəniyyətin bəşər inkişafının ayrılmaz faktoru kimi dərk olunması və qəbul edilməsinin getdikcə güclənməsi nikbin proqnozlar üçün əsas verir. Bu baxımdan yeni mədəniyyət siyasəti mədəni irsin qorunmasına, bədii mədəniyyətin, istehsalat mədəniyyətinin, məişət mədəniyyətinin, səhiyyə, ekologiya, fiziki mədəniyyət, idman, turizm, kitab nəşri və insan həyatının digər fəaliyyət sahələrinin inkişafına yardım edir.

Mədəniyyət siyasətinin ən əhəmiyyətli prioritetlərindən biri xaricdə yaşayan həmvətənlərin mədəniyyət mərkəzləri və cəmiyyətləri ilə əlaqə saxlamaqdan ibarətdir. Hal-hazırda dünyanın bir çox ölkələrində - Rusiya, Ukrayna, Amerika Birləşmiş Ştatları, Türkiyə, Kanada və s. yerlərdə xaricdə yaşayan azərbaycanlıların diaspor mərkəzləri fəaliyyət göstərir və bu kimi əlaqələr ildən-ilə genişlənir.

Azərbaycanda mədəniyyət siyasətinin həyata keçirilməsində Heydər Əliyev Fondu böyük işlər görür. Fondun prezidenti, Azərbaycanın birinci xanımı Mehriban xanım Əliyevanın təşəbbüsü və rəhbərliyi altında beynəlxalq miqyaslı layihələrin həyata keçirilməsi böyük əhəmiyyətə malikdir.

Azərbaycan mədəniyyətinin dünyada tanıdılması və beynəlxalq miqyasda mədəni əlaqələrin qurulması baxımından müxtəlif ölkələrdə Azərbaycan mədəniyyəti günlərinin keçirilməsi xüsusi məna daşıyır. Bu baxımdan qarşılıqlı olaraq, həm yaxın-uzaq xaricdə Azərbaycan mədəniyyət günlərinin təşkili, həm də Azərbaycanda həmin ölkələrin mədəniyyətinin nümayişi qeyd olunmalıdır. Məsələn, Rusiyada, Gürcüstanda, Misirdə, Kubada, Mərakeşdə və bir çox başqa ölkələrdə bu cür tədbirlərin təşkili Azərbaycanın mədəniyyət siyasətinin bir hissəsi olaraq, çox önəmlidir.

Xüsusilə Heydər Əliyev Fondunun dəstəyi ilə 2006-cı ildə YUNESKO-nun 60 illiyi münasibətilə Parisdə, YUNESKO-nun qərargahında, Azərbaycan həftəsi çərçivəsində Azərbaycan mədəniyyəti günlərini qeyd etmək lazımdır. Bu tədbir çərçivəsində YUNESKO-nun sərgi salonunda respublikamızın gözəl mənzərələrini, zəngin mədəniyyətini, tarixini, xalqımızın adət-ənənələrini, azsaylı xalqların həyatını əks etdirən fotoşəkillərdən, misgərlik sənətinin nümunələrinən ibarət sərgi təşkil olunmuşdur.

2009-cu ildə isə Heydər Əliyev Fondu və Azərbaycanın Avropa İttifaqı yanında Daimi Nümayəndəliyinin birgə layihəsi çərçivəsində Avropa Parlamentinin binasında Azərbaycan mədəniyyəti günləri keçirilmişdir. Mədəniyyət günlərində tamaşaçılara ölkəmiz haqqında daha dolğun informasiya çatdırmaq məqsədilə Azərbaycanın təbliğinə yönəlmiş geniş proqram hazırlanmışdır.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə təşkil olunan tədbirlərdən Bakıda beynəlxalq festivalların və müsabiqələrin keçirilməsini qeyd etməliyik. Vokalçıların Bülbül adına beynəlxalq müsabiqəsi, Dmitri Şostakoviçin 100 illiyinə həsr olunmuş musiqi festivalı,






Mstislav Rostropoviç adına hər il ənənəvi beynəlxalq musiqi festivalı, Qəbələdə keçirilən beynəlxalq musiqi festivalı, Üzeyir Hacıbəyli adına Beynəlxalq musiqi festivalı bu qəbildəndir. Bu tədbirlər çərçivəsində dünyanın bir çox tanınmış musiqi xadimlərinin ölkəmizə gəlişi və Bakının konsert salonlarında çıxışları respublikanın musiqi həyatında böyük canlanma yaratmaqla yanaşı, dünyanın musiqi ictimaiyyəti arasında da geniş rezonans doğurmuşdur. 2009-cu ildən başlayaraq, hər iki ildən bir keçirilən "Muğam Aləmi" Beynəlxalq musiqi festivalı və elmi simpoziumu da milli-mənəvi dəyərlərimizin qorunması və Azərbaycan mədəniyyətinin təbliği sahəsində Heydər Əliyev Fondunun həyata keçirdiyi mühüm layihələrdən biri olmuşdur.

Beləliklə, Azərbaycanın müxtəlif beynəlxalq təşkilatlarla mədəniyyət sahəsində qurduğu geniş əməkdaşlıq əlaqələri ölkəmizin milli-mədəni ənənələrə sadiq qalaraq dünya sivilizasiyasına inteqrasiyası üçün əlverişli şərait yaratmışdır.

## Традиции общенационального лидера Гейдара Алиева в развитии культурной политики Азербайджана

Статья посвящена изучению основных приоритетов культурной политики республики. В статье подчеркивается роль общенационального лидера азербайджанского народа Гейдара Алиева в становлении и развитии культурной политики страны. А также отмечается большая роль в проведении успешной культурной политики Президентом Азербайджанской Республики Ильгамом Алиевым, способствующий широкому признанию азербайджанской культуры зарубежом. В статье дается обзор проектов и мероприятий международного уровня, реализованных под руководством президента Фонда Гейдара Алиева, Посла Доброй воли ЮНЕСКО и ИСЕСКО Мехрибан Алиевой.

## The national leader Heydar Aliyev's traditions in development of cultural policy of Azerbaijan

The article is devoted to studying of basic priorities of the external cultural policy of the republic. In the article is underlined the national leader of Azerbaijan Heydar Aliyev's role in formation and development of cultural policy of the country. And also is marked the President of Azerbaijan Republic Ilham Aliyev's role in carrying out of a successful cultural policy, promoting wide recognition of Azerbaijan cultures and arts abroad. In the article is given the review of projects and the actions of the international level realized under the direction of the president of Heydar Aliyev Foundation, the Goodwill Ambassador of UNESCO and ISESKO Mehriban Aliyeva.